

**Bədii təhsilin inkişafına dövlətimiz tərəfindən göstərilən diqqət və qayğı sayəsində respublikanın uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin fəaliyyəti nəzərə çarpacaq dərəcədə yaxşıladırılmışdır.**

# Bədii təhsilin inkişafı

**Böyüməkdə olan nəslin estetik tərbiyəsində, uşaq və yeniyetmələrin bədii-estetik zövqünün formalaşmasında musiqi və incəsənət məktəblərinin əhəmiyyətli rolunu yüksək qiymətləndirən ulu öndərin böyük qayğısı sayəsində bu tədris müəssisələrinin şəbəkəsi ildən-ilə artmışdır.**

Belə ki, 1969-cu ildə Heydər Əliyev hakimiyyətə gəldiyi zaman respublikada cəmi 79 uşaq musiqi və incəsənət məktəbi fəaliyyət göstərirdi və burada 17122 şagird təhsil alırdı. Sonrakı illər ərzində bu məktəblərin şəbəkəsi əhəmiyyətli şəkildə inkişaf etmiş, tədrisin səviyyəsi xeyli yüksəlmişdir.

Əgər 1979-cu ildə 113 uşaq musiqi və incəsənət məktəbində 26570 şagird, 1989-cu ildə 183 məktəbdə 39669 şagird təhsil alırdısa 1999-cu ildə uşaq musiqi və incəsənət məktəblərinin sayı 231-ə, bu məktəblərdə təhsil alan şagirdlərin sayı isə 66748 nəfərə çatmışdı.

Bu gün respublikamızda 183 uşaq musiqi, 51 incəsənət və 2 rəssamlıq məktəbi fəaliyyət göstərir. 39 məktəb Bakı şəhərində, 170 məktəb respublikanın şəhər, rayon və kəndlərində, 26 məktəb isə Naxçıvan Muxtar Respublikasındadır. Bu məktəblərdə 70.000-dən çox şagird təhsil alır.

Bu təhsil ocaqları uşaq və yeniyetmələrin yaradıcılıq imkanlarının inkişaf etdirilməsi, istedadlı gənclərin üzə çıxarılması sahəsində əhəmiyyətli rol oynayırlar. Mütəmadi olaraq keçirilən gənc musiqiçilərin festival və müsabiqələrində, uşaq muğam ifaçılarının, gənc aşıqların, uşaq xor kollektivlərinin respublika müsabiqələrində, çeşidli mövzulara həsr edilmiş rəsm sərgilərində ölkənin müxtəlif regionlarından yüzlərlə uşaq iştirak edir. Gənc istedadlar xarici ölkələrdə keçirilən beynəlxalq tədbirlərdə də ölkəmizi uğurla təmsil edirlər.

Qaçqın və məcburi köçkün ailələrindən olan uşaqların incəsənət sahəsinə cəlb olunmalarına, təhsil almalarına xüsusi diqqət yetirilir. Erməni işğalına məruz qalmış rayonların musiqi və incəsənət məktəbləri məcburi köçkünlərin müvəqqəti məskunlaşdığı yerlərdə fəaliyyət göstərirlər.

Hazırda Ağdam, Cəbrayıl, Füzuli, Xocalı, Xocavənd, Kəlbəcər, Laçın, Şuşa, Zəngilan rayonlarının 50 uşaq musiqi və incəsənət məktəbindən 39-u respublikamızın müxtəlif bölgələrində - Bakı, Gəncə, Mingəçevir, Naftalan, Sumqayıt, Yevlax şəhərlərində, Ağcabədi, Abşeron, Beyləqan, Biləsuvar, Goranboy və Saatlı rayonlarında fəaliyyətlərini bərpa etmişlər.

Bakı şəhərində gözdən əlil uşaqlar üçün ixtisaslaşdırılmış musiqi məktəbi fəaliyyət göstərir. Burada fortepiano, tar, kamança, qarmon, nağara, xanəndəlik ixtisasları üzrə 180-dən artıq şagird təhsil alır. MDB ölkələrində analoqu olmayan bu məktəb 1980-ci ildə açılmışdır. Nazirliyimiz onun fəaliyyətini daim diqqət mərkəzində saxlayır, bu spesifik tədris müəssisəsinin ehtiyaclarını öyrənir, yaranmış problemlərin aradan qaldırılmasına köməklik göstərir. Məktəbin şagird və müəllimləri respublika və şəhər miqyasında keçirilən tədbirlərdə, beynəlxalq festivallarda iştirak edirlər.

Hazırda respublikamızda uşaqların və gənclərin dünya standartlarına uyğun, yüksək səviyyədə təhsil almaları üçün hər cür şərait yaradılır. Məktəblərdə dünyanın qabaqcıl tədris müəssisələrinin iş təcrübəsindən, müasir texnologiyalardan geniş istifadə olunur. Yeni məktəb binaları inşa edilir, tədris ocaqlarının maddi-texniki bazası möhkəmləndirilir.

İstedadlı uşaq və gənclərin aşkara çıxarılması, onların potensial imkanlarının inkişaf etdirilməsi və səmərəli təhsil almaları üçün lazımi şəraitin yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 aprel tarixli 1414 nömrəli Sərəncamı ilə "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)" təsdiq edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 27 avqust tarixli 309s nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2009-2013-cü illər üçün Azərbaycan Respublikasında uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin fəaliyyətinin yaxşılaşdırılması üzrə İnkişaf Proqramı" ilə əlaqədar Mədəniyyət və Turizm Nazirliyinin müvafiq əmrlərinə uyğun olaraq İşçi qrupu yaradılmış və Nazirliyin tədbirlər planı təsdiq edilmişdir.

2009-cu il 29 yanvar tarixində İnkişaf Proqramının icrası üzrə tədbirlər planının müzakirəsinə həsr olunmuş İşçi qrupun iclası keçirilmişdir. Proqramın icrası istiqamətində 6 ay ərzində görülmüş işlər haqqında Nazirlik tərəfindən Azərbaycan Hökümətinə müvafiq hesabat təqdim olunmuşdur.

Məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində "2009-2013-cü illər Bakı şəhəri və qəsəbələrinin sosial-iqtisadi inkişafına dair tədbirlər Proqramı"nın və "2009-2013-cü illər üçün Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın layihələrində respublikanın uşaq musiqi, incəsənət və rəssamlıq məktəbləri üzrə Mədəniyyət və Turizm Nazirliyinin fəaliyyət dairəsinə daxil olan tədbirlərə uyğun olaraq Bakı şəhərindəki və regionlardakı məktəb binalarının əsaslı təmiri, yeni binaların tikintisi, bu işlərə tələb olunan vəsaitlərin həcmi müəyyənləşdirilmişdir.

Bakı şəhərində gözdən əlil uşaqlar üçün 38 nömrəli Uşaq Musiqi Məktəbinin binası Heydər Əliyev Fondu, T.Quliyev adına 12 nömrəli Uşaq Musiqi və Buzovna qəsəbəsindəki 4 nömrəli Uşaq İncəsənət məktəblərinin binaları Nazirlik tərəfindən müasir tərzdə əsaslı təmir olunaraq is-

tifadəyə verilmişdir. Bundan əlavə Bərdə rayonunda tam yeni tipli, müasir standartlara cavab verən nümunəvi uşaq incəsənət məktəbi binası tikilmiş, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə açılışı olmuşdur.

Cari ilin iyun ayında Ağdaş rayon Uşaq Musiqi Məktəbinin yeni inşa edilmiş binası istifadəyə verilmişdir. Müasir tələblərə cavab verən yeni tədris binasının inşası Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü və Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə həyata keçirilmişdir.

Bərdə rayonunda məcburi köçkünlük şəraitində fəaliyyət göstərən Ağdam rayon Qiyaslı və Güllücə kənd uşaq musiqi məktəbləri Ağdam rayonunun Baharlı və Dörd yol qəsəbələrində tikilmiş yeni binalara köçürülmüşdür. Bir neçə il Mingəçevir şəhərində müvəqqəti məskunlaşmış Xocalı rayon Kərkicahan qəsəbə Uşaq Musiqi Məktəbi isə Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsinə yerləşdirilmişdir. Qəsəbədə həmin məktəb üçün Daxili İşlər Nazirliyi tərəfindən müasir tipli musiqi məktəbi binası inşa edilərək istifadəyə verilmişdir.

İnkişaf Proqramı təsdiq edilən gündən başlayaraq uşaq musiqi və incəsənət məktəblərinin musiqi alətləri, dərsliklər və dərs vəsaitləri ilə təmin olunması sahəsində ardıcıl şəkildə tədbirlər görülür. Məktəblərin dərslik və dərs vəsaitlərinə, habelə musiqi alətlərinə olan tələbatı konkret rəqəmlərlə hesablanmışdır.

Yalnız keçən 2008/2009-cu tədris ili ərzində Nazirlik tərəfindən 34.725 manat məbləğində 15 adda dərslik və dərs vəsaitləri çap edilərək məktəblərin istifadəsinə verilmiş, 20296 manat məbləğində musiqi alətləri alınmış və əvəzsiz olaraq məktəblərə paylanılmışdır.

Gözdən əlil uşaqların təhsil aldığı 38 nömrəli Uşaq Musiqi Məktəbi üçün 1949 manat məbləğində Brayl yazılı dəsliklər çap edilmiş, 7620 manat məbləğində inventar və musiqi alətləri alınmışdır.

Azərbaycan Bəstəkarlar İttifaqının balansında olan 5 ədəd royal əvəzsiz olaraq Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan tədris müssisələrinin balansına verilmişdir.

Artmaqda olan paytaxt əhalisinin musiqi sahəsində yüksək səviyyəli orta təhsilə yiyələnmək tələbatını nəzərə alaraq 2009-cu il 1 sentyabr tarixindən Bakı şəhər T.Quliyev adına 12, Ə.Bədəlbəyli adına 23 və 24 nömrəli uşaq musiqi məktəbləri 11 illik təhsil sisteminə keçirilmişdir.

Artıq üç ildir ki, iyul-avqust aylarında ixtisas təhsili olmayan, böyük pedaqoji iş stajına malik uşaq musiqi və incəsənət məktəblərinin müəllimləri üçün Respublika Mədəniyyət Müəssisələri İşçilərinin Hazırlıq və İxtisasartırma Mərkəzində gücləndirilmiş ixtisasartırma kursları təşkil edilmişdir. Bu müddət ərzində buraya respublikanın şəhər və rayonlarından 500-dən çox müəllim cəlb olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin "Gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında" sərəncamları ilə respublikanın uşaq musiqi və incəsənət məktəblərinin onlarla şagirdinin adı Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılmış və onlar Azərbaycan Respublikası Prezidentinin xüsusi aylıq təqaüdünə layiq görülmüşlər.

2009-cu ildə Bakı şəhər L. və M.Rostropoviçlər adına 21 nömrəli onbirillik musiqi məktəbinin şagirdi Zəhra Yusiflinin adı Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılmış və o, Azərbaycan Respublikası Prezidentinin xüsusi aylıq təqaüdünə layiq görülmüşdür.

Son üç ildə uşaq musiqi və incəsənət məktəblərində çalışan müəllim və direktorlardan 10 nəfər əməkdar müəllim, 9 nəfər əməkdar mədəniyyət işçisi fəxri adına, 2 nəfər Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə, 2 nəfər "Tərəqqi" medalına layiq görülmüşlər.

2009-cu ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə Laçın şəhər 1 nömrəli Uşaq Musiqi Məktəbinin müəllimi Elmira Abbasovaya "Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi" fəxri adı verilmiş, Bakı şəhər Q.Qarayev adına 8 nömrəli Musiqi Məktəbinin müəllimi Təranə Babayeva "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Gəncə şəhər T.Hacıyev adına 2 nömrəli Uşaq Musiqi Məktəbinin və Şamaxı rayon Uşaq İncəsənət Məktəbinin 50 illik yubileyi ilə əlaqədar məktəblərin qabaqcıl işçilərinə pul mükafatı verilmiş, təşəkkür elan edilmişdir.



Laçın şəhərinin yaranmasının 85 illik yubileyi ilə əlaqədar mədəniyyət sahəsində uzun müddət səmərəli fəaliyyət göstərdiklərinə görə Laçın şəhər 1 nömrəli, Şəlvə kənd və Ərdəşevi kənd uşaq musiqi məktəblərinin bir sıra qabaqcıl müəllimləri Nazirliyin Fəxri Fərmanı ilə təltif olunmuşlar.

Bir vacib məsələni də xüsusi olaraq vurğulamaq istərdim. Hesab edirik ki, respublikamızın müxtəlif şəhər və rayon uşaq musiqi və incəsənət məktəbləri arasında əlaqə yaratmaq, rayon və kənd məktəblərinin işini yaxşılaşdırmaq, müəllimlərə metodiki kömək göstərmək məqsədilə uşaq musiqi və incəsənət məktəbləri kollektivlərinin təcrübə mübadiləsinin, birgə konsertlərinin keçirilməsi zəruridir.

Bu baxımdan Bakı şəhər T.Quliyev adına 12 və R.Babayev adına 25 nömrəli uşaq musiqi məktəblərinin işini qeyd etmək istərdim. Belə ki, 12 nömrəli Uşaq Musiqi Məktəbinin kollektivi Zaqatala, Şamaxı rayonlarında, 25 nömrəli Uşaq Musiqi məktəbinin kollektivi Quba, Şamaxı, Şəki şəhərlərində olmuş, burada konsert proqramı ilə çıxış etmişdir.

Nazirliyin Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzində məktəblərdə tədris proqramlarının təkmilləşdirilməsi, şagird biliklərinin qiymətləndirilməsi, bir sıra nəzəri fənlər üzrə buraxılış imtahanlarının eksperiment şəkildə təşkili məsələlərinin elmi əsaslarının araşdırılması işinə başlanılmışdır.

Bununla yanaşı məktəblərə daim elmi-metodik köməklik göstərilir, respublikanın ayrı-ayrı bölgələrində fəaliyyət gösətərən uşaq musiqi və incəsənət məktəbləri üçün "Fortepiano", "Saz", "Ritmika" tədris proqramları, "Fortepiano və truba üçün pyeslər" məcmüəsi, "Kamançanın tədrisinə dair" metodik tövsiyələr nəşr edilmişdir.

Xoreoqrafiya sinifləri üçün "Xalq səhnə rəqsi", "Klassik rəqs", "Tarixi məişət və müasir bal rəqsi", "Vokal sinfi", 11 illik təhsil sisteminə keçən məktəblər üçün "Tar sinfi" tədris proqamları, "Violonçel məktəbi", "Skripka məktəbi", "Qarmon məktəbi", "Kamança məktəbi" dərslikləri, "Tar ilə fortepiano üçün pyeslər məcmuəsi" tədris vəsaiti işlənilib hazırlanmışdır.

Pedaqoji kadrların peşəkarlıq səviyyəsinin yüksəldilməsi məqsədilə Nazirliyin Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzinin əməkdaşları tərəfindən respublikanın şəhər və rayonlarında fəaliyyət göstərən uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərində çalışan müəllimlər üçün Sumqayıt və Şirvan şəhərlərində zona seminarları, Mingəçevir və Şəki şəhərlərində, Ağdaş, Astara, Balakən, Qəbələ, Oğuz, Zaqatala və Yardımlı rayonlarında açıq dərslər keçirilmişdir. Sumqayıt şəhər və Qubadlı rayonunun uşaq musiqi və incəsənət məktəblərində Bakı şəhər R.Hacıyev adına 15 nömrəli Uşaq Musiqi Məktəbinin müəllimi, respublikanın əməkdar müəllimi Tamilla Məmmədovanın fortepiano ixtisası üzrə ustad dərsləri təşkil edilmişdir.

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi uşaqların estetik tərbiyəsi, gənc istedadların dəstəklənməsi, onların yaradıcılıq qabiliyyətinin inkişaf etdirilməsi sahəsində məqsədyönlü iş aparır.

Uşaq və yeniyetmələrin yaradıcılıq imkanlarını inkişaf etdirmək, istedadlı şagird və tələbələri üzə çıxarmaq məqsədilə müntəzəm olaraq baxışlar, festivallar, müsabiqələr, sərgilər keçirir. Bu tədbirlər sırasında uzun illərdən sonra Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təşkili bərpa olunmuş və artıq ənənə şəklini almış pianoçuların, simli alətlər, xalq çalğı alətləri, nəfəsli və zərb alətləri ifaçılarının, uşaq muğam ifaçılarının, gənc aşıqların, uşaq xor kollektivlərinin respublika müsabiqə və festivalları, kiçik rəssamların çeşidli sərgiləri xüsusi yer tutur.

2008/2009-cu tədris ilində Nazirlik tərəfindən keçirilən respublika və beynəlxalq miqyaslı tədbirlərdə uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin şagirdlərinin iştirakı qeyd edilməlidir.

2009-cu il 18-22 mart tarixlərində Estoniya Respublikasının Narva şəhərində keçirilmiş İ.S.Bax adına gənc pianoçuların Beynəlxalq müsabiqəsində Bakı şəhər G.Şaroyev adına 35 nömrəli Uşaq Musiqi Məktəbinin şagirdləri uğurla iştirak etmişlər. Fəridə Qafarlı II yeri tutaraq laureat adı almış və pul mükafatına layiq görülmüş, Vüsal Süleymanov, Nigar Məmmədli, Timur Kruçinin müsabiqənin diplomantı olmuşlar.

2009-cu il 22-27 aprel tarixlərində Belarus Respublikasının Mozır şəhərində keçirilmiş

"Земля под белыми крылями" adlı Gənc istedadların VI Beynəlxalq Festivalında Bakı şəhər T.Quliyev adına 12 nömrəli Uşaq Musiqi Məktəbinin şagirdləri Şamil Məmmədov solo-vokal (estrada) nominasiyası üzrə I dərəcəli diploma, Vüqar Məmmədov solo-vokal (xalq yaradıcılığı) nominasiyası üzrə xüsusi diploma, S.Ələsgərov adına 1 nömrəli Uşaq İncəsənət Məktəbinin şagirdləri Cabbar Səttarov və Vüsalə Babayeva milli rəqs nominasiyası üzrə birinci dərəcəli diploma layiq görülmüşlər. Qaliblərə qiymətli hədiyyələr verilmişdir.

Bakı şəhər R.Hacıyev adına 15 nömrəli Uşaq Musiqi Məktəbinin şagirdi Kamil Həsənov 2009-cu il 1-8 may tarixlərində Gürcüstanın Tbilisi şəhərində keçirilmiş Gənc pianoçuların IV beynəlxalq müsabiqəsində uğurlu çıxış nümayiş etdirmiş, 5-ci yer tutaraq müsabiqənin laureatı adına və bürünc medala layiq görülmüşdür. Kamil Həsənov həmçinin cari ilin 22-28 iyul tarixlərində Suriya Ərəb Respublikasının Dəməşq şəhərində keçirilmiş gənc pianoçuların II beynəlxalq müsabiqəsində III Dərəcəli Diploma və pul mükafatına layiq görülmüşdür.

Uşaq yaradıcılığının inkişaf etdirilməsi, gənc istedadların üzə çıxarılması, beynəlxalq mədəni əlaqələrin möhkəmləndirilməsi, müxtəlif xalqların mədəniyyətləri ilə tanışlıq vasitəsilə uşaqlar arasında dostluq əlaqələrinin yaradılması məqsədilə 2009-cu il 29 may-1 iyun tarixlərində Bakı şəhərində "Şərq-Qərb dünyası uşaqların gözü ilə" beynəlxalq rəsm müsabiqəsi keçirilmişdir. Müsabiqədə iştirak etmək üçün Azərbaycan, Belarus, Bolqarıstan, Çin, Filippin, Gürcüstan, Honq-Konq, İsrail, Qatar, Qazaxıstan, Latviya, Misir, Rusiya, Tayland, Türkiyə, Ukrayna, Pakistan, Polşa və s. ölkələrdən 5-15 yaşlı uşaqların 2000-ə yaxın rəsm əsərl daxil olmuşdur.

Müsabiqənin Əsasnaməsinə müvafiq olaraq bunlardan ən yaxşı 300 əsər seçilmiş və 2009-cu il 1 iyun tarixində - Beynəlxalq Uşaqları Müdafiə Günündə Muzey Mərkəzinin incəsənət qalereyasında təşkil olunmuş sərgidə nümayiş etdirilmişdir. Azərbaycan, Rusiya və Özbəkistanın tanınmış rəssam və sənətşünaslarından ibarət münsiflər heyəti üç yaş qrupu üzrə qalibləri müəyyənləşdirmiş, onlara diplom, medal və hədiyyələr verilmişdir. Qaliblər sırasında Azərbaycan, Belarus, Bolqarıstan, Çin, Gürcüstan, İsrail, Qətər, Latviya, Misir, Pakistan, Rusiya, Tailand, Türkiyə, Ukraynadan kiçik rəssamlar iştirak edirdi.

Təbii ki, uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin işi müəyyən nöqsanlardan xali də deyil. Odur ki, yeni tədris ilində çatışmazlıqların ləğvinə xüsusi önəm veriləcəkdir.

Yeri gəlmişkən, qeyd edim ki, bu münasibətlə 2009-cu il 1 sentyabr tarixində müasir tərzdə yeni təmir olunmuş Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının möhtəşəm binasında "2008/2009-cu tədris ilinin yekunları və respublikanın uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin qarşısında duran vəzifələr" mövzusunda uşaq musiqi, incəsənət və rəssamlıq məktəbləri direktorlarının müşavirəsi keçirilmişdir.

İlk dəfə olaraq keçirilən bu müşavirədə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri cənab Əbülfəs Qarayev uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin fəaliyyətinin yaxşılaşdırılması üzrə İnkişaf Proqramında prioritet istiqamətlər kimi müəyyən edilmiş məsələlərin - məktəblərin modernləşdirilməsi, onların maddi-texniki bazasının gücləndirilməsi, kadr potensialının möhkəmləndirilməsi, məktəblərin idarə olunması və şagird hazırlığının keyfiyyətinə nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, təhsilin məzmunca yeniləşdirilməsi kimi məsələlərin həlli sahəsində konkret tapşırıqlar vermiş, tədris müəssisələrinin qarşısında duran vəzifələri müəyyənləşdirmişdir.

***Düşünürəm ki, fəaliyyətimizi bu istiqamətdə qurmaqla biz böyüməkdə olan nəslin estetik tərbiyəsi, uşaq və yeniyetmələrin bədii-estetik zövqünün formalaşdırılması istiqamətində mühüm addım atacağıq.***

**• Yaşar Əliyev,**
***Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi elm və təhsil şöbəsinin müdiri***